

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 119 (23.761)

*3 iyul 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 iyul tarixli Sərəncamı ilə cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində, ölkədə tətbiq edilmiş xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına nəzarət edilməsində, hərbi vəziyyət rejiminin təmininə yönəlmiş tədbirlərin həyata keçirilməsində, işğaldan azad olunmuş ərazilərdə ictimai asayişin və təhlükəsizliyin təmin edilməsində xidməti vəzifələrini yerinə yetirməkdə fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşı təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları da vardır:

**Məmmədov Məmmədəli Həsən oğlu – polis polkovnik-leytenantı**

"Vətən uğrunda" medalı ilə,

**Əliyev Səməndər Əziz oğlu – polis mayoru**

"İgidliyə görə" medalı ilə təltif edilmişlər.

## Naxçıvan şəhərində modul tipli xəstəxana istifadəyə verilib





Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda səhiyyənin inkişafı dövlət siyasətinin əsas prioritetidir. Müasir səhiyyə infrastrukturu və kadr təminatı tibbi xidmətin səviyyəsini xeyli yüksəltmişdir. Muxtar respublikanın bütün yaşayış məntəqələrini əhatə edən və vətəndaşların sağlamlıqlarının qorunması istiqamətində görülən işlər insan amilinə verilən dəyərin ifadəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Mən çalışıram və istəyirəm ki, Azərbaycanın hər bir yerində yüksək səviyyəli tibbi xidmət göstərilsin. Çox şadam ki, Naxçıvanda bu sahədə böyük işlər görülür, böyük uğurlar əldə edilir".***

İyulun 2-də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin yoluxucu mərkəz kimi fəaliyyət göstərəcək modul tipli xəstəxanası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 186 çarpayılıq modul tipli xəstəxana 3 əsas korpus və 4 yardımçı binadan ibarətdir. Əsas korpuslarda 83 palata, reanimasiya bölməsi, 16 yerlik yeməkxana, camaşırxana, inzibati və digər yardımçı otaqlar yerləşir.

Xəstəxana digital rentgen-stasionar, ultrasəslə müayinə cihazı – stasionar rəngli doppler, EKQ-portativ, 2 neqatoskop, 2 stasionar və portativ süni tənəffüs aparatı, 5 kardiomonitor, kapnoqraf, 10 infuzomat, 10 inyeksiyamat, 10 pulsoksimetr, 4 elektrosorucu-stasionar, 30 tibbi ştativ, qan qazı analizatoru və digər zəruri tibbi avadanlıqlarla təchiz olunmuşdur. Yardımçı binalarda konteyner tipli mobil oksigen generasiya sistemi, oksigen balonları üçün anbar, bakterioloji filtrli hava qurğusu və qazanxana quraşdırılmışdır.

Kompleks mərkəzləşdirilmiş havalandırma və istilik sistemi ilə təchiz olunmuşdur.

Ali Məclisin Sədri tibbi xidmətin təşkili və ərazidə yaşıllıqların artırılması barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublikada heyvandarlıq məhsullarının istehsalı artmışdır

Muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsi olaraq aqrar sektorun bütün sahələrində ciddi irəliləyişə nail olunmuş, bütün növ kənd təsərrüfatı, o cümlədən heyvan mənşəli məhsulların istehsalı davamlı artmış, məhsul bolluğu yaradılmışdır. Baytarlıq təbabəti sahəsində görülən işlər, yeni heyvandarlıq təsərrüfatlarının yaradılması, əlverişli yem bazası və ixtisaslı kadrlarla təminat heyvandarlığın inkişafına yeni imkanlar yaratmışdır.

Cari ilin yanvar-may aylarında 14 heyvandarlıq təsərrüfatının yaradılması, 5 heyvandarlıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 10 heyvandarlıq təsərrüfatının yaradılması, 1 heyvandarlıq kompleksinin yenidən qurulması və 3 heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir. Bank və kredit təşkilatları tərəfindən cari ilin yanvar-may aylarında bu sahəyə 6 milyon 11 min 700 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 55,8 faiz çoxdur.

Muxtar respublikada süni mayalanma işlərini günün tələbləri səviyyəsində təşkil etmək və mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Süni Mayalanma Mərkəzi yaradılmış və mərkəzdə yeni infrastruktur obyektlərinin tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir.

2021-ci ilin yanvar-may aylarında muxtar respublikada heyvandarlıq təsərrüfatlarında 5219 baş inək, düyə və camış süni yolla mayalandırılmış, ötən ildə mayalandırılmış inək, düyə və camışlardan 5095 baş sağlam bala alınmışdır.

Həyata keçirilən dəstəkləyici tədbirlər iribuynuzlu və xırdabuynuzlu heyvanların baş sayının dinamik artımını təmin etmiş, 1 aprel 2021-ci il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında iribuynuzlu mal-qaranın sayı 125 min 305 baş, xırdabuynuzlu heyvanların sayı isə 784 min 27 baş olmuşdur ki, bu da 2011-ci ilin müvafiq dövründəki göstəriciləri 16,6 və 20 faiz üstələmişdir.

Daxili bazarda yerli istehsalın həcminin artırılması məqsədilə cari ilin yanvar-may aylarında 1 quşçuluq təsərrüfatının yaradılması və 1 quşçuluq təsərrüfatının genişləndirilməsi işləri davam etdirilmişdir. Bundan əlavə, arıçılığın inkişafı istiqamətində müvafiq tədbirlər görülmüş, 6 arıçılıq təsərrüfatının yaradılması, 1 arıçılıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış və 3 arıçılıq təsərrüfatının yaradılması davam etdirilmişdir. Cari ilin yanvar-may aylarında quşçuluğun və arıçılığın inkişafına, ümumilikdə, 346 min 400 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 24,9 faiz çoxdur.

Muxtar respublikada əhalinin keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsulları ilə təminatını qoruyub saxlamaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın icrası üzrə cari ilin yanvar-may aylarında müvafiq tədbirlər həyata keçirilmiş, Şərur rayonunun Şəhriyar, Ordubad rayonunun Nüsnüs və Yuxarı Əndəmic kəndlərində istifadəyə verilən kənd mərkəzlərində baytarlıq məntəqələri üçün müasir iş şəraiti yaradılmışdır. Hazırda inşası davam etdirilən digər kənd mərkəzlərində baytarlıq məntəqələri üçün müasir iş şəraitinin yaradılması və Kəngərli Rayon Baytarlıq İdarəsinin binasının tikintisi davam etdirilir.

Əldə olunmuş uğurlu nəticə kimi, 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 2021-ci ilin yanvar-may aylarında diri çəkidə ət istehsalı 43,6 faiz artaraq 9788,4 ton, süd istehsalı 15,9 faiz artaraq 37521 ton, yumurta istehsalı 41,6 faiz artaraq 55973,6 min ədəd təşkil etmişdir.

***Əsas heyvandarlıq məhsulları istehsalı (yanvar-may ayları üzrə)***




2021-ci ilin yanvar-may aylarında 52 milyon 274 min 200 manatlıq heyvandarlıq məhsulları istehsal edilmişdir ki, bu da 2011-ci ilin müvafiq dövrü ilə müqayisədə 63,3 faiz çoxdur.

Heyvandarlığın inkişafı əhalinin keyfiyyətli yerli məhsullarla təminatına və özünüməşğulluğun artırılmasına yeni imkanlar yaratmışdır. Aqrar sahənin inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayan Ali Məclisin Sədri demişdir: ***"Bu gün ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində həyata keçirilən tədbirlər ərzaq təhlükəsizliyini təmin etmişdir. Kənd təsərrüfatının inkişafında əsas sahələrdən biri də baytarlıq təbabəti və baytarlıq xidmətinin təşkilidir. Çünki bu sahədə lazımi şəraitin yaradılması, müasir avadanlıqların alınması, eləcə də kadrlarla təminat heyvandarlığın, quşçuluğun və arıçılığın inkişafına şərait yaradır".***

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

***Muxtar respublikada quruculuq tədbirlərinə start veriləndən qədim diyarımızın kənd yaşayış məntəqələri öz simasını əsaslı surətdə dəyişib. Hər il ayrı-ayrı ünvanlarda müxtəlif təyinatlı obyektlər inşa olunur, mövcud obyektlər yenidən qurulur, onların maddi-texniki bazaları gücləndirilir.***

## Daha bir yaşayış məntəqəsində kompleks quruculuq tədbirləri aparılır

Belə tədbirlər Şərur rayonunu da əhatə edir.



Qürurverici haldır ki, bu gün bölgənin yaşayış məntəqələrinin böyük əksəriyyəti müasirlik donundadır və belə ünvanlarda kompleks quruculuq işləri həyata keçirilib. Rayonun Dərvişlər kəndinə də həmin tədbirlərdən pay düşüb. Belə ki, kənddəki mövcud məktəb binasının yenidən qurulması təhsilin səviyyəsini yüksəltməyə hərtərəfli şərait yaradacaq. Müəllim və şagirdlərin ixtiyarına işıqlı sinif otaqları, zəngin laboratoriyalar, idman zalı, kompüter və elektron lövhəli siniflər veriləcək.



Dərvişlər kəndinin sakinlərinə böyük dövlət qayğısının ifadəsi kimi bu yaşayış məntəqəsində kənd və xidmət mərkəzləri də inşa olunur. Kənd mərkəzində yaşayış məntəqəsində fəaliyyət göstərən qurumlar üçün müasir iş şəraiti təmin ediləcək. Sakinlərin sağlamlığı keşiyində dayanmaq məqsədilə burada həm də səhiyyə məntəqəsi üçün otaqlar ayrılacaq.

Kompleks quruculuq tədbirləri çərçivəsində kəndarası yollar da təmir edilir. Bütün obyektlərdə keyfiyyət amilinə ciddi diqqət yetirilir, yerli inşaat materiallarından istifadəyə üstünlük verilir, texniki təhlükəsizlik tədbirləri diqqət mərkəzində saxlanılır.

**Xəbərlər şöbəsi**

# Muxtar respublikada ümumi tutumu 800 ton olan soyuducu anbar yaradılıb

***İyulun 2-də "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin soyuducu anbarı istifadəyə verilib.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev bildirib ki, müasir dövrdə etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtlərindən biridir. Məhz buna görə də muxtar respublikamızda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı iqtisadi strategiyanın əsas komponenti kimi diqqət mərkəzində saxlanılır, bu istiqamətdə qəbul edilmiş mühüm Dövlət proqramları ilə konkret inkişaf istiqamətləri müəyyənləşdirilib. Ötən dövr ərzində kompleks tədbirlər çərçivəsində yeni emal müəssisələrinin yaradılması, məhsul istehsalçılarına dövlət maliyyə yardımlarının göstərilməsi, istehsal olunan məhsulların saxlanılması və satışının təşkilinə şərait yaradılması, yeni satış bazarlarının təşviqi bu sahədə iqtisadi aktivliyi əhəmiyyətli dərəcədə artırıb.





Kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində aparılmış məqsədyönlü tədbirlər nəticəsində ötən il soyuducu anbarlara 7256 ton kartof, 379 ton soğan, 379 ton kələm, 536 ton alma, 150 ton üzüm olmaqla, 8700 ton meyvə-tərəvəz məhsulları tədarük olunub. Ötən tədarük dövrü ərzində İqtisadiyyat Nazirliyinin təsisçisi olduğu "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" MMC tərəfindən 1111 ton kartof, 287 ton soğan, 19 ton alma məhsullarının nağd alınaraq tədarük olunması yerli istehsalçıların fəaliyyətini stimullaşdırmaqla yanaşı, əkin sahələrinin genişləndirilməsinə də öz təsirini göstərib.

Nazir qeyd edib ki, "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" MMC tərəfindən müasir standartlara cavab verən avadanlıqlarla təchiz edilən, ümumi tutumu 800 ton olan 4 kameradan ibarət yeni soyuducu anbar inşa olunub. Kameralarda temperatur mənfi 18 dərəcədən müsbət 18 dərəcəyədək tənzimlənib ki, bu da kartof və soğan məhsullarının saxlanılmasına şərait yaradıb. Hər iki anbarı fasiləsiz enerji ilə təmin etmək məqsədilə bir ədəd 1000 kilovat gücündə transformator, 630 kilovat gücündə generator quraşdırılıb.

Qeyd olunub ki, bu gün istifadəyə verilən soyuducu anbarla birlikdə "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin soyuducu anbarlarının sayı 3-ə, ümumi tutumu isə 2350 tona çatdırılmışdır. Hazırda muxtar respublikada ümumi tutumu 20 min 900 ton olan 48 soyuducu anbar fəaliyyət göstərir.

İqtisadiyyat naziri Tapdıq Əliyev muxtar respublikamızın sosial-iqtisadi tərəqqisinə, sahibkarlıq fəaliyyətinin inkişafına, əhalinin tələbatının daha dolğun və keyfiyyətli məhsullarla ödənilməsinə, soyuducu anbarın yaradılmasına, kənd təsərrüfatı işçilərinin əməyinin qiymətləndirilməsinə göstərilən diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı şöbəsinin müdiri Xudakərim Məmmədov çıxış edərək nazirliyin təşkilatçılığı ilə iyulun 15-dən başlayaraq meyvə-tərəvəz məhsullarının tədarükü, saxlanılması və satışı üzrə soyuducu anbarlara məhsul qəbuluna başlanılacağını, cari ildə bu tədarükün 27 soyuducu anbar tərəfindən həyata keçiriləcəyini vurğulayıb.

Soyuducu anbarlara qəbul olunan məhsulların qiymətləri barədə məlumat verən Xudakərim Məmmədov bildirib ki, 1-ci növ kartof 40, 2-ci növ kartof 25, 1-ci və 2-ci növ qarışıq kartof isə 30 qəpiyə, 1-ci növ soğan 35, 2-ci növ soğan 25, 1-ci və 2-ci növ qarışıq soğan 30 qəpiyə, 1-ci növ alma 80, 2-ci növ alma 50, 1-ci və 2-ci növ qarışıq alma 60 qəpiyə, kələm 30 qəpiyə qəbul edilib, digər məhsullar isə mövsümə və məhsulun tam yetişməsinə uyğun olaraq qəbul ediləcək.

Sonra soyuducu anbara baxış olub.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*İnkişaf edən bölgələrimiz*

# BABƏK:
## inkişaf və tərəqqinin, müasirliyin ünvanı

***Bura Babəkdir. Hər il geniş abadlıq-quruculuq işlərinin aparıldığı, 76 mindən çox əhalinin yaşadığı, ən ucqar dağ və sərhəd kəndlərində şəhər rahatlığının hökm sürdüyü, yeni iş yerlərinin, emal və istehsal sahələrinin yaradıldığı, aqrar sektorun dinamik inkişaf etdiyi rayon qədim Naxçıvan torpağının sosial-iqtisadi həyatında mühüm pay sahibidir. 2021-ci ilin ötən dövrü ərzində əldə olunmuş nailiyyətlər, rayonun quruculuq xəritəsinin daha da genişlənməsi bu iri yaşayış məntəqəsinə göstərilən davamlı dövlət qayğısının daha bir ifadəsidir.***

Uca dağ yamaclarına sığınıb, düşmənə gözdağıdır Aşağı Buzqov və Yuxarı Buzqov, Gərməçataq. Səfalıdır, qonaqpərvərdir Nəhəcir və Göynük kəndləri. Naxçıvançay boyunca sıralanan Şəkərabad, Yarımca, Hacıvar, Badaşqan gözəlliyi ilə göz oxşayır. İnkişafın zirvəsində dayanıb rayon mərkəzi olan Babək şəhəri… Böyüyüb, simasını dəyişib Nehrəm və Cəhri qəsəbələri. Müstəqilliyin nuruna boyanıb Qahab, Naxışnərgiz, Zeynəddin, Sirab, Kərimbəyli, Nəzərabad, Didivar. Abaddır Gülşənabad, Payız. Kiçik yaşayış məntəqələri olsalar da, böyük quruculuq işləri aparılıb Nəcəfəlidizədə, Çeşməbasarda, Güznütdə. Kəndlə şəhər arasındakı fərq götürülüb Şıxmahmudda, Xəlillidə. Yeniləşir, müasirləşir, həmin kəndlərin siyahısına qoşulur Araz. Məktəb binası, kənd və xidmət mərkəzləri inşa olunur, yeni yol salınır, evlərə içməli su və kanalizasiya xətləri çəkilir Araz adlı kiçik yurd yerində. Tezliklə Araz müasir Azərbaycan kəndinin real nümunəsinə çevriləcək.






Bu il Babəkin ən ucqar dağ kəndi olan Göynük də müasir yaşayış məntəqəsi kimi həyata vəsiqə alacaq. Vaxtilə şəraitsizliyin hökm sürdüyü, sosial qayğıların baş alıb getdiyi kəndə dövlət müstəqilliyimizin işığı nur salıb. Texnikaların səsi Göynüyü bürüyüb. İndi köhnə, nimdaş binalar sökülür, yerində müasir layihə əsasında təhsil ocağı üçün bina inşa olunur, dövlət qurumlarının yerləşəcəyi kənd mərkəzi, rahat alış-veriş üçün xidmət mərkəzi tikilir.

Sirabda əsaslı şəkildə yenidən qurulan kənd məktəbi, Cəhri qəsəbəsində tikilən məscid Babək rayonunun davamlı inkişafından xəbər verir. Rayon Statistika İdarəsindən aldığımız rəqəmlər də fikrimizi təsdiqləyir. 2021-ci ilin yanvar-may aylarında iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 17 milyon manatdan artıq vəsait yönəldilib. Vəsait qoyuluşlarının 96,4 faizi tikinti-quraşdırma işlərində istifadə edilib.

Kənd təsərrüfatı sürətlə inkişaf etdirilir, hər il on minlərlə hektar sahədə əkin aparılır Babəkdə, tonlarla taxıl, meyvə-tərəvəz, heyvandarlıq məhsulları istehsal olunur bu diyarda. Dövlət torpaq mülkiyyətçisinə dəstək göstərir, kredit ayırır, texnika təminatını, suvarma imkanlarını yaxşılaşdırır, subsidiyalar verir.

Bu ilin fevral ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ailə təsərrüfatçıları və sahibkarlarla keçirdiyi görüşdə Babək rayonunun Cəhri qəsəbəsindən və Aşağı Buzqov kəndindən olan 2 nəfərə heyvandarlıq və maldarlıq üzrə ailə təsərrüfatları qurmaq və ya genişləndirmək üçün, ümumilikdə, 30 min manat dəyərində güzəştli kredit verilib. Cari ilin ötən dövrü ərzində rayonda daha 3 ailə təsərrüfatı yaradılıb və beləliklə, Babəkdə ailə təsərrüfatlarının ümumi sayı 193-ə çatdırılıb. 2021-ci ilin yanvar-may aylarında rayonda diri çəkidə 1131,9 ton ət, 6238,8 ton süd istehsal olunub.

Uzun illər əkilməyən torpaqların münbitliyi artırılır, yenidən əkin dövriyyəsinə daxil edilir. Bir sözlə, dövlət bununla torpaq mülkiyyətçisinə deyir ki, təsərrüfatını qur, işgüc sahibi ol, istehsal sahəsi yarat. Bu gün Babəkdə torpaq ən yaxşı iş yerinə, dolanışıq vasitəsinə çevrilib. Torpaq tər verənə zər verir, insanı naümid qoymur. Müstəqillik illərində dövlət tərəfindən aqrar sahədə həyata keçirilən kompleks tədbirlər, qəbul olunmuş Dövlət proqramlarının uğurlu icrası bol məhsul təminatı yaradıb. 2021-ci ilin məhsulu üçün Babək rayonunda 10 min 603 hektar sahədə taxıl əkini aparılıb. Artıq elin sərvəti toplanır. İndiyə kimi 2858 hektar sahənin taxılı biçilib. Bu il taxılın alış qiymətləri daha da artırılıb. Belə ki, dövlət tərəfindən fermerlərin, ailə təsərrüfatçılarının istehsal etdikləri arpanın 1 kiloqramı 40, buğdanın 1 kiloqramı 45, qarğıdalının 1 kiloqramı isə 40 qəpikdən satın alınacaq. Tədarük olunan məhsulun ödənişi yerində və nağd formada həyata keçirilir. Bütün bunlar bol taxıl istehsalına zəmin yaradıb.

Ötən əsrin 90-cı illərindəki dağıdıcı proseslər Naxçıvandakı arıçılıq təsərrüfatlarına da təsirsiz ötüşməmişdi. Belə ki, muxtar diyarda arı ailələrinin sayında və məhsul istehsalında kəskin azalma müşahidə olunurdu. Halbuki Naxçıvanın təbiəti ta qədimdən kənd təsərrüfatının aparıcı sahələrindən olan arıçılığın inkişafına şərait yaradıb. Müstəqillik illərində muxtar respublikada bu sahənin inkişafına hesablanmış konkret tədbirlər həyata keçirildi. Ali Məclis Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı", arıçılıqla məşğul olan hüquqi və fiziki şəxslərə subsidiyaların verilməsi, festivalların, yarmarkaların təşkil olunması, arıçılıq təsərrüfatlarının yaradılması üçün güzəştli kreditlərin ayrılması bu sahəyə marağı daha da artırıb. Bu il rayonda daha 1 arıçılıq təsərrüfatının yaradılması davam etdirilib.

Vaxtilə ərzaq təhlükəsizliyi ilə üzləşən Naxçıvan bu gün 300 növdən çox məhsul istehsal edir. Qədim diyarda yaradılan emal və istehsal sahələri, ailə təsərrüfatları, iri sənaye müəssisələri həm də məşğulluq məsələlərinin həllinə müsbət təsir göstərir. Beləliklə, artıq insanlar yaşadığı kənddə, qəsəbədə, şəhərdə iş qurub, sahibkar adını qazanıb, dost-tanışlarını, qohum-qardaşlarını da iş-güc sahibi edib. Məşğulluq məsələlərinin uğurlu həllində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq olunan "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" mühüm əhəmiyyətə malikdir. Proqrama uyğun olaraq cari ildə rayonda 23 aztəminatlı ailə fərdi təsərrüfatlarını qurmaq üçün özünüməşğulluq proqramına cəlb olunub.



Ötən əsrin 90-cı illərində həm də informasiya blokadasına məruz qalan Naxçıvan ölkədə və dünyada baş verən hadisələrdən, demək olar ki, xəbərsiz qalmışdı. Paralel olaraq energetika sektorunda da dərin böhran yaşanırdı. Qədim diyar zülmətə, qaranlığa qərq olmuşdu. Amma bütün bunlar artıq acı bir xatirə kimi arxada qalıb. 2021-ci ilin ötən dövrü ərzində Babəkdə informasiya, rabitə, energetika və sosial təminat sahəsində işlər uğurla davam etdirilib. Statistik göstəricilərə nəzər saldıqda görürük ki, bu dövrdə rayonda informasiya və rabitə xidmətlərinin dəyəri 2 milyon manatdan artıq olub. Rabitəçilər tərəfindən 29 ədəd 32 yerlik internet platası avtomat telefon stansiyalarına əlavə olunub və beləliklə, 900-dən artıq abunəçinin internetdən istifadə etməsinə şərait yaranıb. Rayonda əhaliyə müasir poçt xidmətləri də göstərilir.

Bu gün Babək rayonunun ərazisində yerləşən elektrik stansiyaları muxtar respublikanın enerji təhlükəsizliyinə mühüm töhfə verir, qədim diyar enerji ixracatçısı kimi şöhrət qazanır. Bununla belə, rayonda energetika sahəsində infrastruktur daim yenilənir. Belə ki, Babək şəhərində və Şəkərabad kəndində smartkarttipli elektrik sayğacları quraşdırılıb, yeni inşa olunmuş evlər elektrik enerjisi və mavi yanacaqla təmin olunub.

İnsan amilinə verilən yüksək dəyər, davamlı dövlət qayğısı muxtar respublikanın hər yerində olduğu kimi, Babək rayonunda da məskunlaşma, sosial rifah halının yaxşılaşması sahəsində qazanılan uğurlarla özünü doğruldur. Təkcə bu faktı qeyd etmək yerinə düşər ki, bu ilin 5 ayı ərzində 219 işaxtaran vətəndaş qeydiyyata alınıb ki, onlardan 206-sı daimi işlə təmin olunub. Rayonda tibbin ən son nailiyyətləri tətbiq edilir, müasir səhiyyə infrastrukturu yaradılır. Bu ilin yanvar-may aylarında Babək rayonunda 5732 pasiyent icbari tibbi sığortanın imkanlarından faydalanıb, bu dövrdə rayonda 213 uşaq doğulub.

*Ulu öndər Heydər Əliyevin əməyi, dəstəyi, təşəbbüsü ilə yaradılan Babək rayonu bu gün müasirliyin, inkişaf və tərəqqinin ünvanı kimi şöhrət qazanıb. Ali Məclis Sədrinin himayəsi və qayğısı ilə Göynük və Araz kəndlərinin də abadlaşmasından sonra Babək rayonunun bütün yaşayış məntəqələrinin yenidən qurulması prosesi başa çatdırılacaq. Qısa zaman ərzində görülən böyük işlər göz qabağındadır. Budur Vətən sevgisi, xalqa sədaqətlə xidmət etmək amalı.*

**Muxtar RZAZADƏ**
***"Şərqin səhəri" qəzetinin redaktoru***



## Naxçıvan dünən

### Düşünməyə dəyər

...Əhalinin çox yerləşdiyi şəhər daxilində, küçə və yolların kənarında yaşıllıqlar çox azdır. Onlardan da çoxu qurumuş və ya kəsilmiş haldadır. Əksər ağacların qurumuş budaqları kəsilməmiş ağaclar kökündən çıxarılmış, yerləri boş qalmış və asfaltla örtülmüşdür. Şəhərdə son vaxtlar kooperativlərin genişləndirilməsi, təmir-bərpa işləri şəhər landşaftının pozulmasına səbəb olmuşdur. Hansısa bir kooperativin tikilməsi və ya obyektin inşası, küçə və meydanların təmiri zamanı nə qədər ağac və kollar, yaşıllıqlar məhv olmuşdur. Əlaqədar təşkilatlar isə bu işə biganə yanaşırlar. Halbuki başqa respublikalarda indi bir udum hava üçün nə qədər haray-həşir salırlar. Biz isə...

**Tofiq BƏYLƏROV,**
**Sərvər MƏSUM**
***"Şərq qapısı" qəzeti***
***4 sentyabr 1990-cı il***

## və bu gün

# Təbiətə sevgi və qayğı ilə yanaşılanda

***Bəli, təbiətə sevgi və qayğı ilə yanaşılanda yuxarıdakı mənzərə kökündən dəyişilə bilər. Artıq 30 ilə yaxındır ki, bir udum təmiz havanın, bir udum suyun sorağı ilə minlərlə turist gəlir bu diyara. Milli prioritet təşkil edən yaşıllıqların sürətli bərpası və artırılması nəticəsində bu gün muxtar respublikamız yaşıllıqlar diyarına çevrilib. Hər il yeni meyvə bağlarının, meşə zolaqlarının salınması, vaxtlı-vaxtında onlara göstərilən aqrotexniki qulluq təbiətin zənginləşdirilməsi istiqamətində görülən ardıcıl tədbirlərdəndir. Təbiətin canlandığı yaz fəslində isə bu cür tədbirlər sürətlə davam etdirilir. Bunun nəticəsidir ki, 2021-ci ilin ilk rübündə 115,6 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılıb, 45 min 235 ağac və gül kolu əkilib. Yeni yaşıllıqlar, meyvə bağları həm ekoloji tarazlığı qoruyur, həm iqtisadi inkişafa, həm də sağlamlığın qorunmasına öz töhfəsini verir.***



Qeyd etməliyik ki, muxtar respublikamızda bu tədbirlərin əsası ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə – 1991-1993-cü illərdə qoyulub. ***"Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir"***, – deyən ulu öndərimizin ətraf mühiti qorumaq, yaxşılaşdırmaq məqsədilə ekologiya sahəsində həyata keçirdiyi uğurlu siyasət nəticəsində həmin illərdə blokadanın çətinliklərinə baxmayaraq, muxtar respublikamızda yaşıllaşdırma iməcilikləri keçirilir, təbiətin, yaşıllığın qorunması və bərpası işlərinə diqqət artırılırdı. Bu gün muxtar respublika ərazisinin 27 faizini təşkil edən xüsusi mühafizə olunan təbiət əraziləri – Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Arazboyu, Ordubad və Arpaçay Dövlət Təbiət yasaqlıqları ətraf mühitin mühafizəsi, nadir və nəsli kəsilmək təhlükəsində olan bitki və heyvan növlərinin, mədəniyyət və tarixi-memarlıq abidələrinin qorunub saxlanılması, mövcud ekoturizm potensialından səmərəli istifadə olunmasında mühüm rol oynayır. Muxtar respublika təbiətinin zənginliyini burada mövcud olan nadir bitki və heyvan növləri də sübut edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilddən ibarət "Qırmızı kitab" çap edilib. Bu da sayı azalmaqda olan növlərin mühafizə edilməsi və artırılması baxımından mühüm əhəmiyyət kəsb edən addımdır.

### *Naxçıvan cənnətə çevrilib*

Muxtar respublikamızda aparılan ekoloji siyasət, bağlarda, parklarda, yol kənarlarında əkilən yamyaşıl ağaclar, al-əlvan güllər, çiçəklər Naxçıvanımızı əsl cənnətə çevirib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə füsunkar təbiətə malik diyarımızda əlverişli ekoloji mühitin yaradılması məqsədilə Dövlət proqramları qəbul edilib, ardıcıl tədbirlər görülüb. Son illər iməciliklər yolu ilə salınan yaşıllıqlar qədim diyarın təbiətinin zənginləşdirilməsində, sağlam ekoloji mühitin formalaşdırılmasında mühüm rol oynayıb. Muxtar respublikamızda insanın təbiətlə qarşılıqlı əlaqəsi və ekoloji məsələlərə münasibəti, ətraf mühitə qayğısı artıb. Qədim diyarımızın sakinlərinin birgə əməyi nəticəsində əkilən ağaclar, görülən təmizlik və səliqə-sahman işləri təbiətə öz töhfəsini verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri mütəmadi olaraq muxtar respublikada keçirilən iməciliklərdə, yeni meyvə bağları və yaşıllıqların salınmasında iştirak edir, yeni meyvə tingləri əkir. Cari il aprelin 17-də Ali Məclisin Sədri Naxçıvan şəhərindəki 55 hektarlıq badam bağında keçirilən iməcilikdə iştirak edib, meyvə bağlarının salınmasının davam etdirilməsi və yaşıllıqlara qulluq göstərilməsi barədə tapşırıqlar verib. Muxtar respublika rəhbərinin keçirilən iməciliklərdə yurddaşları ilə birgə iştirakı sadə, qayğıkeş, zəhmətkeş, yorulmaz insan kimi onu naxçıvanlılara sevdirib, eyni zamanda "Təbiətə qayğı gələcəyə qayğıdır" tezisini hamımızın gözü önündə nümunəyə çevirib.

Təbiəti qorumaq, ona qayğı ilə yanaşmaq işində ekoloji təfəkkürün formalaşması və inkişafı sahəsində aparılan maarifləndirmə tədbirləri də mühüm rol oynayır. Hazırda Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi təbiətin mühafizəsi, ekoloji tarazlığın qorunması, yaşıllıqların artırılması, biomüxtəlifliyin zənginləşdirilməsi, təbii sərvətlərdən məqsədyönlü və səmərəli istifadəyə nəzarətin artırılması və digər ekoloji məsələlərin həlli, eyni zamanda ekoloji-hüquqi maarifləndirmə tədbirlərinin aparılması istiqamətində fəaliyyətini davam etdirir. Gənclərlə işin səmərəli təşkili məqsədilə nazirlik Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu ilə birgə "Ekoloji könüllülər" layihəsi çərçivəsində ekologiya könüllüləri ilə "Gələcək üçün təmizlə!" devizi altında müxtəlif ərazilərdə təmizlik aksiyası keçirir. Burada gənclərə ətraf mühitin mühafizəsi barədə geniş məlumat verilir, təbiətə qayğı və sevgi ilə yanaşmağın vacibliyi öyrədilir.

### *Naxçıvan təbiəti ilə turistləri heyran edən məkandır*

Qədim tarixi, yaşı əsrlərlə ölçülən çoxsaylı abidələri, yenilməz, cəsur duruşu, gözəl mənzərələri, təhlükəsiz mühiti, təmiz, abad küçələri, özünəməxsus mətbəxi, milli-mənəvi dəyərləri, qonaqpərvərliyi ilə nümunə yaradan, qədimliklə müasirliyin vəhdətini təşkil edən gözəl Naxçıvana ilin bütün fəsillərində turistlər gəlir. Diyarımızın füsunkar təbiəti, təmiz havası isə bütün bunların fövqündə dayanan ən vacib amillərdən biridir. Hər kəsin əvvəlcə öz sağlamlığını ön planda tutduğunu düşünsək, istirahət üçün, ümumiyyətlə, uzunmüddətli yaşamaq üçün hamı həmin yerin əvvəlcə gözəl təbiətinin, təmiz havasının olmasını arzulayar. Hava təmiz olmazsa, təbiət gözəlliklərindən necə zövq almaq olar? Ona görə də təbiət həm həyat, həm də nəfəsdir. Bu gün Kiçik Qafqazın Zəngəzur və Dərələyəz dağ silsilələrini əhatə edən, Zaqafqaziya yaylasının cənub-şərqində yerləşən, zəngin flora və faunası, bol sulu çayları, coşub-daşan şəlalələri, sonalı gölləri, müalicə əhəmiyyətli mineral suları ilə hamının arzuladığı məkandır Naxçıvan. Dörd fəslin dördündə də maraqlı, heyrətamiz və gözəldir diyarımız. Ona görədir ki, Naxçıvanın ucalıq rəmzi Haçadağ, təbiət gözəli, "mərcan gözlü" Batabat yaylağı, onun məşhur "Üzən adası", müasir turizm məkanı, təbiət möcüzəsi Ağbulaq, uca dağların qovuşğunda dörd fəsli bir araya gətirən Göygöl, coşqun sulu Xan Araz, gursəsli Arpaçay, Qaplançay, uca dağların köksündən qopan Pəzməri şəlaləsi və digər bu kimi yerlər füsunkar görünüşü, bənzərsiz havası ilə turistləri valeh edir, onlar Naxçıvan təbiətinin





gözəlliyindən ağızdolusu danışırlar. Bununla da Naxçıvan ilin bütün fəsillərində qəbul etdiyi xarici qonaqlarını razı yola salır.

### *Muxtar respublikamızda ekoturizm və qış turizmi inkişaf edir*

Qədim diyarımızda aparılan genişmiqyaslı tikinti-quruculuq, abadlıq işləri bu gün ən ucqar kəndlərimizdə turizmin inkişafına əlverişli şərait yaradıb. Muxtar respublikamızın ən ucqar dağ kəndləri fasiləsiz təbii qaz, elektrik enerjisi, sürətli internet şəbəkəsi ilə təchiz edilib, yollar asfaltlanıb, yol kənarlarında ağaclar əkilib, yaşıllaşdırılıb. Ordubadın Dırnıs, Tivi, Bist, Nəsirvaz, Şərurun Gümüşlü, Şahbulaq, Culfanın Ərəfsə, Xanəgah, Şahbuzun Biçənək, Kükü, Ağbulaq, Nursu, Keçili kəndləri və başqa yaşayış məntəqələrimiz təbiətinin gözəlliyi ilə seçilir və ekoturizm üçün yaxşı məkandır. Burada təbiətə səyahət etmək, mənalı istirahət keçirmək istəyənlər üçün zəruri şərait yaradılıb.

Çox böyük turizm potensialı olan muxtar respublikamızın möcüzəli təbiəti qış turizmi üçün də əlverişlidir. Turizmin bir çox növünün inkişaf etdirildiyi Şahbuz rayonunun Ağbulaq kəndi qış turizminin də ən yaxşı ünvanlarından biridir. Burada kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülüb. Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi yaradılıb, cari ildə Ağbulaq Xizək Mərkəzi istifadəyə verilib. Turizmin inkişafına göstərilən qayğı gələcəkdə muxtar respublikamızın digər kəndlərini də ekoturizmin, qış turizminin əsl ünvanına çevirəcək.

### *Ekologiya milli prioritetlər sırasında*

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə nəzər salanda ekologiyaya dair gələcək üçün qarşıya məqsəd qoyulan bir sıra məsələlərin Azərbaycanımızın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında artıq həll edildiyinin şahidi oluruq. Bunları sizin də diqqətinizə çatdırmaq istəyirəm. Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair Milli Prioritet sırasında "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" başlığı altında beşinci bölmədə göstərilir ki, ölkədə yararsız torpaq sahələri dövriyyəyə cəlb edilməklə mövcud resurslar bərpa olunmalıdır. Diqqətinizə çatdırmaq istəyirəm ki, bu gün muxtar respublikamızda kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində ardıcıl və sistemli işlər görülüb və bu proses davam edir. Torpaqların münbitliyinin artırılması ilə bağlı məsələlər, xüsusilə diqqətdə saxlanılır və bununla bağlı genişmiqyaslı tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı" təsdiq edilib. Torpaq ehtiyatlarından səmərəli istifadə edilməsi, torpaqların əkin dövriyyəsinə qatılması muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunmasına mühüm töhfələr verir. Əkinəyararlı torpaq sahələrinin münbitliyinin qorunması həm də ekoloji mühitə vurulan zərərin qarşısının alınmasında və kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsində mühüm rol oynayır. Muxtar respublikada torpaqların mühafizəsi və münbitliyinin artırılması sahəsində həyata keçirilən davamlı işlər sayəsində son illərdə 22 min hektara yaxın yararsız torpaq sahəsi abadlaşdırılaraq əkin dövriyyəsinə qatılıb. Beləliklə, kənd təsərrüfatına yararlı torpaq sahələri ötən ilin əvvəlinə 177 min 317 hektara yüksəlib. Bunlar onu göstərir ki, muxtar respublikamızda bir qarış torpaq da boş qalmır, ən ucqar dağ və sərhəd yaşayış məntəqələri də daxil olmaqla, torpaqların səmərəli istifadəsi istiqamətində işlər bu gün də davam etdirilir.

Proqramda göstərilən məsələlərdən biri də keyfiyyətli suya tələbatın su resurslarından səmərəli istifadə etməklə ödənilməsidir. Bu gün muxtar respublikamızda torpaq ehtiyatlarından düzgün istifadə olunur, eyni zamanda meliorativ tədbirlərin həcmi genişləndirilir, mütərəqqi suvarma şəbəkələri qurularaq istifadəyə verilir. Son illər muxtar respublikanın Babək, Culfa, Kəngərli və Şahbuz rayonlarında dövlət vəsaiti hesabına 5 min hektardan artıq qapalı suvarma şəbəkələri qurularaq sakinlərin istifadəsinə verilib.

"Yaşıl enerji məkanı" adlanan bölmədə isə göstərilir ki, ölkədə enerjidən səmərəli istifadə edilməli və yeni dayanıqlı enerji mənbələrinə üstünlük verilməlidir. İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqi genişləndirilməlidir...

Onu, xüsusilə vurğulamalıyıq ki, diyarımızın əlverişli coğrafi mövqeyi və iqlim şəraiti burada alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açıb. Bu gün muxtar respublikamızda elektrik enerjisinə olan tələbatın 55 faizi bərpa olunan enerji mənbələri hesabına ödənilir. Son illər muxtar respublikamızda enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verən yeni su və günəş elektrik stansiyaları tikilib və bir sıra su elektrik stansiyalarının tikintisi davam etdirilir. Bu istiqamətdə aparılan işlər yekunlaşdıqdan, digər elektrik stansiyaları istifadəyə verildikdən sonra muxtar respublikanın elektrik enerjisi tələbatı demək olar ki, bərpa olunan enerji mənbələri hesabına təmin olunacaq. "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq bu istiqamətdə tədbirlər ardıcıl olaraq davam etdirilir. Bu gün qürurluyuq ki, bir vaxtlar blokada şəraitində yaşayan, işıqlı gecələrə həsrət qalan muxtar respublikamızda elektrik enerjisinə olan tələbat yerli istehsal hesabına ödənilir, eyni zamanda Naxçıvan elektrik enerjisi ixrac edir. Prezident cənab İlham Əliyev mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri zamanı demişdir: ***"Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir. Çünki bu, Naxçıvanın gözəl təbiətinə və ekoloji vəziyyətinə töhfə kimi qəbul edilməlidir".***

*Bəli, bu şübhəsizdir ki, yararsız torpaqların əkin dövriyyəsinə qatılmasının, suya tələbatın ödənilməsinin, enerji təhlükəsizliyinin təmin olunmasının davamlılığı muxtar respublikamızda yüksəkkeyfiyyətli ekoloji mühitin yaradılmasına, yaşıl enerji məkanının formalaşmasına bundan sonra da öz müsbət töhfələrini verəcək. Yadda saxlamaq lazımdır ki, təbiətə atılan hər bir daş qayıdıb insanın özünə dəyir. Buna görə də özümüz üçün, sağlam gələcək üçün təbiəti sevək və qoruyaq. Bu, hamımızın borcudur...*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Müasir kitabxana xidmətinin yüksək səviyyədə təşkilində elektronlaşma mühüm rol oynayır

***Müasir kitabxana informasiya xidməti qədim zamanlarda meydana gəlmiş, tarixən inkişaf edib formalaşmış, zaman keçdikcə zənginləşmiş kitabxana-biblioqrafiya xidmətinin yeni, inkişaf etmiş, təkmilləşmiş, müasir informasiya texnologiyası ilə silahlanmış mərhələsidir.***



Hazırda oxuculara xidmətin müasir informasiya texnologiyası ilə təmin edilməsi məqsədilə kitabxanalarda elektron oxu zallarının yaradılması, oxucular üçün ümumaçıq informasiya məkanının formalaşdırılması, elektron kataloqlar və elektron kitabxanaların yaradılması, elektron sənədlərlə xidmət və sair informasiya texnologiyasının tətbiqini təmin edən tədbirlər həyata keçirilir. Müasir dövrdə informasiyanın sürətlə artması və tez köhnəlməsi oxuculara operativ və coğrafi uzaqlıqdan asılı olmayaraq, xidmət göstərilməsini diktə edir. Ona görə də ənənəvi ximətdən fərqli olaraq elektron kataloqların köməyi ilə xidmət oxuculara şəbəkə vasitəsilə kitabxananın ədəbiyyat fondunun tərkibi ilə daha tez tanış olmağa imkan verir. Həmçinin oxucuya sorğularına operativ və kitabxanaçı-biblioqrafın köməkliyi olmadan, uzaq məsafədən cavab almağa, ədəbiyyatı onlayn sifariş etməyə şərait yaradır. Elektron kataloq kitabxana fondunun real uçotunun, oxucuların statistikasının, maraq dairəsinin müəyyən edilməsinə, kitabın hərəkətinin izlənil-



məsinə, ədəbiyyat fondunun oxucu sorğusuna uyğun komplektləşdirilməsinə və yeniləşdirilməsinə, oxuculara müasir səviyyədə virtual xidmət təşkil etməyə, oxucuların kitabların elektron versiyalarını əldə etməyə imkan verir.

Ümumiyyətlə, elektron kitabxanaların yaradılmasının əsas məqsədi informasiya xidmətinin keyfiyyətinin yüksəldilməsi, istənilən növ və mövzulu informasiyadan istifadənin genişləndirilməsi, elektron resurslara keçid zamanı istifadəçilərin sayının artırılmasıdır ki, bu da aşağıdakı üsullar vasitəsilə həyata keçirilir:

– istənilən növ informasiyadan istifadənin təmin olunması;

– informasiya ötürücüləri və alıcıları dairəsinin genişləndirilməsi;

– fiziki və ya sosial əngəlli istifadəçilərin informasiya almasına məhdudiyyətlərin aradan qaldırılması;

– informasiyanın istənilən yerə, o cümlədən iş masasına və ya evə çatdırılması imkanlarının genişləndirilməsi;

– informasiyaya müraciət və onun alınma vaxtına məhdudiyyətlərin ləğvi.

Ölkəmizdə ilk elektron kitabxana yaratmaq təşəbbüsləri ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycan Elmlər Akademiyasının Avtomatlaşdırılmış idarəetmə sistemləri laboratoriyasının əməkdaşları tərəfindən irəli sürülmüşdür. Məhz bu laboratoriyada musiqi alətlərinin elektron kitabxanası yaradılmışdır. Hazırda isə qlobal internet məkanında Azərbaycan dilli resursları cəmləşdirən onlarla elektron kitabxana mövcuddur. İlk dövrlərdə elektron kitabxanalar məhdud olsa da, 2007-ci il aprel ayının 20-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" Sərəncamı bu sahənin kompleks və konseptual inkişafına təkan verdi. Məhz bu Sərəncamda bir sıra digər tədbirlərlə yanaşı, ölkənin iri kitabxanalarının elektron kataloqu və elektron kitabxanasının müasir standartlar səviyyəsinə qaldırılması, onun bazasında "Azərbaycan ədəbiyyatının virtual kitabxanası"nın oxucuların tam istifadəsinə verilməsi nəzərdə tutulmuşdur.

Ötən illər ərzində Naxçıvan Muxtar Respublikasında da müasir oxucunun tələbatını hərtərəfli ödəmək məqsədilə müasir kitabxana sistemlərinin yaradılması diqqət mərkəzində saxlanılıb və muxtar respublikada kitabxanaların elektronlaşdırılması üçün məqsədyönlü addımlar atılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında" 2012-ci il 19 aprel tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən Naxçıvan Muxtar Respublika Kitabxanasının bazasında Elektron kitabxana yaradılıb. 2012-ci il dekabrın 3-də Məmməd Səid Ordubadinin 140 və ədibin adını daşıyan Naxçıvan Muxtar Respublika Kitabxanasının 90 illik yubiley tədbirləri keçirilib, elektron kitabxananın təqdimatı olub. Muxtar respublikada universal elmi kitabxana statusuna malik olan bu mədəniyyət ocağında elektron kitabxana sisteminin yaradılması və yeni internet saytının istifadəyə verilməsi kitabxana işinin günün tələbləri səviyyəsində qurulmasına



imkan verib. Kitabxanada ən müasir surətköçürmə aparatı və 2 elektron köşk qurulub, elektron oxu zalında 12 kompüter quraşdırılıb, *www.e-kitab.nakhchivan.az* internet saytı istifadəyə verilib.

Elektron arxiv və elektron kitabxana sisteminin yaradılması istiqamətində növbəti addım isə Naxçıvanşünaslıq Mərkəzinin istifadəyə verilməsi olub. Naxçıvanşünaslığa aid əldə olunan kitab, albom, elmi-kütləvi məqalə, qəzet və jurnal materiallarının, sənədli filmlərin, elektron daşıyıcıların qorunub saxlanılması, tədqiq və təbliğ edilməsi Naxçıvanşünaslıqla məşğul olan ayrıca bir mərkəzin yaradılmasını zərurətə çevirmişdi. Bu zərurət əsas götürülərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 17 fevral tarixli Sərəncamı ilə Naxçıvanşünaslıq Mərkəzi yaradıldı, mərkəz üçün bina ayrıldı və əsaslı surətdə yenidən quruldu. Mərkəz ən müasir informasiya avadanlığı və daşıyıcıları ilə təmin olunub, elektron kitabxana və elektron arxiv istifadəyə verilib. Burada informasiya köşkü ilə yanaşı, 12 kompüterdən ibarət elektron oxu zalı vardır, eyni zamanda mərkəzin *www.e-merkez.alimeclis.az* internet saytı yaradılıb.

2012-ci il iyul ayının 9-da isə Naxçıvan Dövlət Universitetinin Elektron kitabxanasının açılışı olub. Kitabxanada aparılan yenidənqurma işləri zamanı burada müasir surətköçürmə aparatı, elektron informasiya köşkü, əsas və ehtiyat server quraşdırılıb, 20 oxucu yeri yaradılıb. Açılış zamanı kitabxananın *www.e-kitab.ndu.nmr.az* adlı yeni internet saytının da təqdimatı olub.

2013-cü il sentyabrın 4-də isə muxtar respublikamızda daha bir elektron kitabxananın – Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Elektron kitabxanası istifadəyə verilib. Elektron kitabxananın yaradılması məqsədilə 12 terabayt yaddaşı olan əsas və ehtiyat server quraşdırılıb, elektron oxu zalı üçün 6 oxucu yeri yaradılıb. Kitabxana lazımi avadanlıqlarla təmin edilib, burada surətköçürmə aparatı, printer, elektron daşıyıcılarda olan məlumatların vizual və səsli izlənməsi üçün aparat və mobil elektron lövhə qoyulub. Kitabxanaya fiber-optik kabel çəkilib, daxili şəbəkə yaradılıb və *www.e-kitab.ameanb.nmr.az* internet səhifəsi hazırlanıb.

Muxtar respublikamızda təkcə adi təyinatlı kitabxanaların deyil, xüsusi təyinatlı elektron kitabxanaların da yaradılması diqqət mərkəzində saxlanılır. Naxçıvan Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana xidmətinin yaradılması elektron resurslardan bu kateqoriyadan olan vətəndaşlarımızın da sərbəst istifadəsinə şərait yaradıb.

Həyata keçirilən tədbirlərdən bir daha aydın olur ki, Naxçıvan Muxtar Respublikasında müasir oxucunun tələblərinin ödənilməsi, kitabxana işinin müasir standartlar səviyyəsində qurulması diqqət mərkəzində saxlanılıb.

**Tamella ƏSGƏROVA**
***M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru***

## İdmançımız Dünya Kubokunun qalibi olub

***Ukraynanın Nikolayevski bölgəsində yeniyetmələr, gənclər və böyüklər arasında universal döyüş üzrə dünya kubokuna start verilib.***



28 ölkədən 400-ə yaxın idmançının mübarizə apardığı yarışda Azərbaycan milli komandası Əməkdar məşqçi Elşən İsmayılovun rəhbərliyi altında 24 idmançı ilə təmsil olunur. Yığma komandanın heyətində dünya kubokuna qatılan təmsilçilərimizdən biri də Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının və "Turan" döyüş klubunun idmançısı Sadiq Kərimov olub. O, 11-12 yaş kateqoriyasında 42 kiloqram üzrə mübarizə aparıb.

İdmançımız öncə "Light" versiyasında çıxış edib, Polşa, Özbəkistan və Ukrayna idmançılarına qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. "Classic" versiyasında isə Sadiq Kərimov finaladək məğlubiyyətsiz irəliləyib. Həlledici görüşdə xal hesabı ilə məğlub olan idmançımız bu versiyada gümüş medal qazanıb. Bununla yeniyetmə idmançımız dünya kubokunu 1 qızıl və 1 gümüş medalla tamamlayıb.

Sonda idmançımız təşkilatçılar tərəfindən mükafatlandırılıb.

**✍ Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***<u>Sual:</u> Daşınmaz əmlak yaxın qohumların və ya kənar şəxslərin xeyrinə özgəninkiləşdirildikdə hansı məbləğdə dövlət rüsumu ödənilir?***

***Cavab:*** Mülki qanunvericiliyə görə daşınmaz əmlak yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər, yəni torpaq sahələri, yer təki sahələri, ayrıca su obyektləri, meşələr, çoxillik əkmələr, binalar, qurğular və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) əşyalardır. Daşınmaz əmlakın yaxın qohumların – ərin (arvadın), uşaqların, valideynlərin, babanın, nənənin, nəvənin, qardaşın, bacının xeyrinə özgəninkiləşdirilməsi (alqı-satqısı, bağışlanması və sair) müqaviləsinin notarius tərəfindən təsdiqinə görə 20 manat məbləğində dövlət rüsumu ödənilir. Daşınmaz əmlakın kənar şəxslərin, yəni yaxın qohum olmayan şəxslərin xeyrinə özgəninkiləşdirilməsi (alqı-satqısı, bağışlanması və sair) müqaviləsinin notarius tərəfindən təsdiqinə görə isə 250 manat məbləğində dövlət rüsumu ödənilir. Qanunda nəzərdə tutulmuş 250 manat dövlət rüsumunun Bakı şəhəri üzrə 100 faizi, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu üzrə 70 faizi, digər regionlar üzrə isə 50 faizi ödənilir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Dövlət Universiteti aşağıdakı dekan və kafedra müdiri vəzifələrini tutmaq üçün müsabiqə elan edir*

***Fakültə üzrə dekan vəzifəsini tutmaq üçün***

1. Təbiətşünaslıq və kənd təsərrüfatı
2. Tibb
3. Pedaqoji

***Kafedra üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün***

1. Ümumi və nəzəri fizika
2. Xalq çalğı alətləri
3. Musiqi təlimi
4. İqtisadiyyat
5. Roman-german dilləri
6. Hüquq fənləri

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na əsasən müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətindək qəbul edilir. Sənədləri rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərmək lazımdır.

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi Naxçıvan Dövlət Universiteti Telefon: (036)545-23-66***
***Rektorluq***

## Elan

"Naxçıvan" Universiteti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 22 iyun tarixli, 356s nömrəli Sərəncamı ilə təsdiq olunmuş Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2021-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planına əsasən 2021-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul elan edir.

***Doktoranturaya ödənişli əsaslarla***

1. Ümumi iqtisadiyyat – 1 yer
2. Etnopedaqogika – 1 yer

***Dissertanturaya ödənişli əsaslarla***

1. Həndəsə – 1 yer
2. Ehtimal nəzəriyyəsi – 1 yer
3. Ümumi iqtisadiyyat – 3 yer
4. German dilləri – 1 yer
5. Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi –1 yer

"Naxçıvan" Universitetinə doktoranturaya və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

*– "Naxçıvan" Universiteti rektorunun adına ərizə;*

*– kadrların şəxsi qeydiyyat vərəqi;*

*– tərcümeyi-hal*

*– 4 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*

*– iş yerindən xasiyyətnamə;*

*– iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*

*– çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*

*– ali təhsil müəssisəsini bitirmək haqqında diplomun və ona əlavənin müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması barədə şəhadətnamə);*

*– şəxsiyyəti təsdiq edən sənədin surəti.*

***Qeyd:*** Xarici dil imtahanını müvəffəqiyyətlə vermiş şəxslər sənədlərini təqdim edə bilərlər. Sənəd qəbulu 15 iyul 2021-ci il tarixə qədərdir.

***Ünvan: Naxçıvan şəhəri, Babək məhəlləsi 1, "Naxçıvan" Universiteti şəhərciyi Telefon: (036)545-07-45***

### *Bildiriş*

"Miraj Gold" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığından ləğv olunur.

### *İtmişdir*

Hüseynov Hacıisa Abbas oğlunun adına olan "Belarus-892" markalı traktorun AZ-85T-645 nömrəsi itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində yaşamış Seyidova Səkinə Vəli qızının adına verilmiş JN-040ᴬ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur şəhəri, Şah İsmayıl küçəsi 34, mənzil 12-də yaşayan Seyidova Mənsumə Miryusif qızının adına olan evin çıxarışı itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 526